

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 218 (23.380)

*20 noyabr 2019-cu il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Noyabrın 19-da "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin Bakı dairəvi dəmir yolunun Sabunçu-Pirşağı xəttinin yenidənqurma işlərindən sonra açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib. Dövlətimizin başçısı Sabunçu-Pirşağı xəttinin rəmzi açılışını bildirən lenti kəsib.

Prezident İlham Əliyevə Abşeron dairəvi dəmir yolu xəttində aparılan yenidənqurma işləri və perspektiv planlar barədə məlumat verilib.

Dövlətimizin başçısı Pirşağı stansiyasından qatarla "Zabrat-2" stansiyasına yola düşüb.

Prezident İlham Əliyev "Zabrat-2" stansiyasına gəlib. Yenidənqurma işləri çərçivəsində bu stansiya da müasir səviyyəyə çatdırılıb.

Sonra dövlətimizin başçısı "Zabrat-2" stansiyasından Bakı Dəmir Yolu Vağzalına yola düşüb.

Bakı Dəmir Yolu Vağzalına gələn Prezident İlham Əliyevə burada "Defektoskop" infrastruktur-diaqnostika kompleksi barədə məlumat verilib.

Dövlətimizin başçısı burada bir qrup dəmiryolçu ilə görüşüb, son illərdə Azərbaycan dəmir yollarının inkişafı istiqamətində görülən işlərdən danışıb.

Sonra dövlətimizin başçısı metronun "28 May" stansiyasının qarşısında vətəndaşlarla görüşüb, onlarla söhbət edib.

Daha sonra Prezident İlham Əliyev Dəmir Yolu Muzeyi ilə tanış olub.



## Prezident İLHAM ƏLİYEV: "Naxçıvanın uğurlu və təhlükəsiz inkişafı üçün nə lazımdırsa, biz onu da edəcəyik"

***Qədim və müasir Naxçıvan bu gün ulu öndərimiz Heydər Əliyevin əsasını qoyduğu inkişaf strategiyasını uğurla həyata keçirərək ölkəmizin quruculuq, yüksəliş salnaməsini layiqli nümunələrlə zənginləşdirir. Bu diyarda hər addımda milli maraq və mənafelərimiz uca tutulur, əhalinin sosial rifah halının daha da yüksəldilməsi, həyat şəraitinin yaxşılaşdırılması üçün işlər böyük əzmkarlıqla həyata keçirilir. Pozitiv meyillərlə səciyyələnən sosial-iqtisadi tərəqqinin əsas meyarlarından olan azad rəqabət, investisiya mühitinin daha da yaxşılaşdırılması, sahibkarlığın inkişafının təşviqi üsullarından geniş istifadə olunması bu istiqamətdə yeni-yeni uğurlara yol açıb. Əsas qayəsi xalqa və dövlətə layiqli xidmət prinsipi üzərində qurulan uğurlu fəaliyyət Heydər Əliyev ideallarına, Vətənə, yurda bağlılığın Naxçıvan nümunəsini yaradıb.***



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ilk sədri olduğu və dünyanın 70 ölkəsinin 5 mindən artıq şirkət və təşkilatını birləşdirən "Caspian European Club"un Azərbaycanın iqtisadi regionlarının 2017-ci və 2018-ci illər üçün hazırladığı illik investisiya reytinqi üzrə Naxçıvan Muxtar Respublikasının iki dəfə ard-arda lider olması da doğma diyarımızda iqtisadi, mədəni və sosial rifahın təmin edilməsi sahəsində həyata keçirilən kompleks tədbirlərin nəticəsidir.

Ulu öndərimizin yolunu uğurla davam etdirərək qədim diyara həmişə böyük qayğı və diqqət göstərən Prezident cənab İlham Əliyev noyabrın 18-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovu qəbul edərkən bir daha muxtar respublikanın sürətli sosial-iqtisadi inkişafını yüksək qiymətləndirərək deyib: ***"Naxçıvan Muxtar Respublikasının inkişafı daim diqqət mərkəzindədir. Respublikada gedən abadlıq-quruculuq işləri məni çox sevindirir. Naxçıvan son illər ərzində böyük dərəcədə inkişaf etmişdir, həm sosial sahədə, iqtisadi sahədə, sənaye potensialının möhkəmləndirilməsi istiqamətində böyük addımlar atılmışdır. Bu, çox sevindiricidir. Xüsusilə nəzərə alsaq ki, Naxçıvan uzun illər ərzində mühasirə şəraitində yaşayır, üç tərəfdən düşmənlə əhatə olunub. Buna baxmayaraq, respublika yaşayır, güclənir və böyük inkişaf yolunu davam etdirir".***

### Hərbi təhlükəsizlik sistemi yüksək səviyyədə təmin olunub

Dövlət başçısının qeyd etdiyi kimi, çətin coğrafi vəziyyəti nəzərə alınaraq bu gün, ilk növbədə, Naxçıvanda təhlükəsizlik tədbirləri diqqət mərkəzindədir. Məhz bunun nəticəsidir ki, muxtar respublikamızın hərbi təhlükəsizlik sistemini daha da gücləndirmək üçün tarixi əhəmiyyətə malik qərarlar qəbul olunub, lazımi addımlar atılıb. Bu baxımdan ölkə rəhbərinin "Azərbaycan Respublikası Müdafiə Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 2013-cü il 18 dekabr tarixli Fərmanı diqqəti cəlb edir. Həmin dövlət sənədinə əsasən 5-ci Ordu Korpusunun əsasında Əlahiddə Ümumqoşun Ordunun yaradılması Naxçıvanın müdafiə qabiliyyətini daha da artırıb, bir mərkəzdən idarəetmə təkmilləşdirilib və nəticədə, daha effektiv müdafiə sistemi qurulub. Bütün bunların nəticəsidir ki, 2017-ci ildə, 18 oktyabr – Dövlət Müstəqilliyi Günündə Naxçıvanda ilk milli hərbi hissənin yaradılmasının 25-ci ildönümü münasibətilə keçirilən möhtəşəm hərbi parad ölkəmizdə böyük coşqu ilə qarşılandı, bütün regionda rezonans doğurdu. Yaddaşlardan silinməyən bu hadisə Əlahiddə Ümumqoşun Ordunun qüdrətini bir daha bütün dünyaya nümayiş etdirdi.

Sevindirici haldır ki, Əlahiddə Ümumqoşun Ordu əməliyyat-taktiki baxımdan yüksək döyüş hazırlığına malik olmaqla yanaşı, həm də muxtar respublikamızın hakim yüksəkliklərində etibarlı müdafiə sistemi qurub. 2018-ci ilin may ayında Günnüt zəfərinin qazanılması düşmənin hərəkət imkanlarını daha da məhdudlaşdırıb, istinilən təxribatlara qarşı adekvat cavab vermək imkanımız artıb. Ordunun ətrafdakı ərazilərə maneəsiz nəzarət etməsi, ona həm də istənilən hədəfi dəqiqliklə yox etmək imkanı verir.

Muxtar respublikamızın strateji yüksəkliklərində Vətənə ləyaqətlə xidmət edən əsgər və zabitlərin xidmət şəraiti də daim diqqətdə saxlanılır, maddi-texniki təminat gündən-günə daha da yaxşılaşdırılır. Çətin dağlıq şəraitdə yerləşən hərbi hissələrdə xidmət edən əsgərlərə hərtərəfli dövlət qayğısı göstərilir, güclü maddi-texniki təminat və xalq-ordu birliyi hərbi qulluqçuların döyüş əzmini daha da artırır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri dəfələrlə muxtar respublikanın hakim yüksəkliklərinə gedərək xidmətin təşkili və şəxsi heyətin məişət şəraiti ilə, buradakı vəziyyətlə maraqlanıb, bütün məsələlərin vaxtında həlli üçün müvafiq tapşırıqlar verib. Dağ postlarının, demək olar ki, hamısına yolların çəkilməsi verilən tapşırıqların sürətlə yerinə yetirilməsinə şərait yaradır. Ali Məclis Sədrinin diqqət və qayğısı sayəsində bəzi postlarımızın təminatı avqust-sentyabr aylarında tam gerçəkləşdirilib. Qarşıya çıxa biləcək istənilən məsələnin həlli həmişə diqqətdə saxlanıldığı üçün, hətta gələn ilin iyun ayına qədər təminat artıqlaması ilə həyata keçirilib.

Dövlət başçısının dediyi kimi: ***"Naxçıvanın hərbi potensialı çox yüksək səviyyədədir. Naxçıvanın müdafiəsi üçün hər şey edilib və Naxçıvan özünü istənilən hücumlardan tam şəkildə müdafiə etməyə və eyni zamanda istənilən hərbi vəzifəni icra etməyə qadirdir".***

### Enerji təhlükəsizliyinin təmini diqqət mərkəzindədir

Otuz ilə yaxındır, blokada vəziyyətində olan Naxçıvan Muxtar Respublikasının enerji təhlükəsizliyinin təmin olunması mühüm əhəmiyyət kəsb edir. Bu sahənin inkişaf etdirilməsi istər ölkə başçısı, istərsə də muxtar respublika rəhbərinin fəaliyyətində hər zaman prioritet istiqamətlərdən olub. Hələ ötən əsrin 90-cı illərinin əvvəllərində çətin günlərini yaşayan Naxçıvan ciddi enerji böhranı ilə üzləşən zaman ulu öndərin apardığı danışıqlar nəticəsində İran İslam Respublikasından 42, Türkiyə Respublikasından isə 63 meqavat elektrik enerjisi nəqlinə başlanılıb. Bu mənada, muxtar respublikada enerji təhlükəsizliyi sahəsində ötən illərdə görülən işlər dahi şəxsiyyətin memarı olduğu milli təhlükəsizlik arxitekturasının davamı kimi qiymətləndirilir. Bu gün Naxçıvanın daxili enerji resursları ilə özünü tam təmin etməsi məhz bu siyasətin nəticəsidir.

Son illər istifadəyə verilən yeni elektrik stansiyaları tələbatın dayanıqlı şəkildə ödənilməsində və ixrac imkanlarının yaranmasında mühüm əhəmiyyətə malikdir. Belə ki, 2003-cü ildə muxtar respublikada bir elektrik stansiyası var idisə, hazırda 9 elektrik stansiyası mövcuddur. Onlardan da 6-sı bərpa olunan enerji sistemləridir. ***"Bu, doğrudan da tarixi nailiyyətdir"***, – deyən dövlətimizin başçısı bunun muxtar respublikanın təhlükəsizlik məsələsi olduğunu da vurğulayıb.

Bütün bunların nəticəsidir ki, əgər 2003-cü ildə muxtar respublika 1 milyard kilovat-saata yaxın enerji idxal etmişdisə, 2018-ci ildə 35 milyon kilovat-saata yaxın ixrac edib. Hazırda İran İslam Respublikası ilə imzalanmış anlaşma nəticəsində reallaşan önəmli layihə icra edilir – 36 meqavat gücündə Ordubad Su Elektrik Stansiyası tikilir. Həmin stansiya fəaliyyətə başladıqdan sonra muxtar respublika özünü 100 faiz alternativ və bərpa olunan enerji ilə təmin edəcəkdir.

Onu da deyək ki, 2005-ci ildən etibarən Naxçıvanın təbii qaza olan tələbatı da ödənilir. Bu gün 90 minə yaxın abonent mavi yanacaqla təmin olunub. Sevindirici haldır ki, çox çətin relyefə malik olan ən ucqar dağ kəndlərimiz də təbii qazla tam təmin edilib. Bu, böyük nailiyyətdir.

### İnkişaf nümunəsinə çevrilən infrastruktur quruculuğu

Naxçıvan bu gün möhtəşəm quruculuq meydanını xatırladır. Qürurla deyə bilərik ki, bu gün muxtar respublikanın kənd, qəsəbə və rayon mərkəzlərinin 90 faizə yaxını artıq yenidən qurulub, abadlaşdırılıb. Muxtar respublika sakinləri şəhərlərimizin, kəndlərimizin abadlaşdırılması, yeni-yeni gözoxşayan binaların, sosial obyektlərin inşa edilməsi istiqamətində görülən işləri ulu öndərimizin siyasi xəttinin bəhrələri kimi dəyərləndirir, daim bu siyasi xəttə sadiqlik nümayiş etdirirlər.

Aparılan genişmiqyaslı quruculuq işləri zamanı yol tikintisinə xüsusi diqqət yetirilir. Son illər Naxçıvanda müasir standartlara uyğun avtomobil yolları salınıb, mövcud yolnəqliyyat kompleksi təkmilləşdirilib, qonşu ölkələrlə iqtisadi əlaqələrin daha da genişləndirilməsində, beynəlxalq yük və sərnişin daşımalarında əhəmiyyətli rol oynayan magistral yollar yenidən qurulub. Belə ki, yenidən qurulan 87 kilometr uzunluğunda Naxçıvan-Sədərək, 34 kilometrlik Naxçıvan-Culfa və 88,8 kilometrlik Naxçıvan-Şahbuz-Batabat magistral avtomobil yolları bu gün ən müasir səviyyədədir. Ötən illərdə ölkə başçısının müvafiq sərəncamlarına uyğun olaraq Təzəkənd-Çalxanqala-Qıvraq dairəvi, Çeşməbasar-Boyəhməd, Hacıvar-Vayxır-Sirab və Şəkərabad-Babək qəsəbə-Nehrəm-Arazkənd dairəvi avtomobil yolları yenidən qurulub. Hazırda 50 kilometr uzunluğundakı Culfa-Ordubad yolunun tikintisi davam etdirilir.

*Ardı 2-ci səhifədə*

Ümumiyyətlə, 2003-2019-cu illər ərzində kənd yolları da daxil olmaqla, 2 min kilometrə yaxın ümumi yollar investisiya və büdcə vəsaiti hesabına müasir səviyyədə bərpa edilib. Kəndlərin yol infrastrukturunun tamamilə müasirləşdirilməsi yaşayış məntəqələri arasında avtomobillərin təhlükəsiz və rahat hərəkətinin, eləcə də kəndlərin turizm potensialının artmasına və iqtisadiyyatın inkişafına səbəb olub.

Dövlət başçısı Naxçıvanda yol tikintisi sahəsində həyata keçirilən tədbirləri yüksək qiymətləndirərək deyib: ***"Naxçıvan şəhərini digər şəhərlərlə birləşdirən gözəl və çox keyfiyyətli yollar salınıb... Naxçıvan-Culfa, Naxçıvan-Şahbuz, Naxçıvan-Sədərək yolları ən yüksək standartlara cavab verir... Kənd yollarının tikintisi də uğurla gedir və bu proses davam edəcək".***

Bu məqamda qeyd edək ki, iqtisadi inkişafın digər bir nümunəsi də sənaye məhəllələridir. Burada dünya praktikasında uğurla tətbiq olunan və fəaliyyətindən çox sayda müsbət nəticələr gözlənilən ərazi regiona xas müxtəlif növ sahibkarlıq fəaliyyətini həyata keçirmək üçün zəruri olan bütün infrastruktur şəraiti ilə təmin edilir. Prezident cənab İlham Əliyevin 2019-cu il 13 sentyabr tarixli Fərmanı ilə qəbul edilmiş Şərur Sənaye Məhəlləsinin yaradılması haqqındakı qərar bu baxımdan Naxçıvan Muxtar Respublikası iqtisadiyyatının daha da şaxələndirilməsi və ixrac potensialının artırılması məqsədinə xidmət edir. Bu sahədə də layihə-planlama işlərinə başlanılıb, qısa müddət ərzində investorların cəlbi ilə bağlı təkliflər verilib. Bu ilin sonuna artıq orada ilk müəssisənin qurulması işlərinə başlanılacaqdır. İlk olaraq bitki yağları istehsalı müəssisəsinin yaradılması nəzərdə tutulub.

### Muxtar respublikanın ərzaq təhlükəsizliyi təmin olunub

Naxçıvanın blokada vəziyyətində yaşaması onun ərzaq təhlükəsizliyinin təmin edilməsi məsələsini də daim aktuallaşdırır. Bu mənada, diyarımızda kənd təsərrüfatının inkişaf etdirilməsi, qapalı suvarma şəbəkələrinin qurulması və yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılması da bu sahədə həyata keçirilən tədbirlərin davamıdır. Bu, torpaq və su ehtiyatlarından səmərəli istifadə etməklə bol məhsul istehsalına, nəticə etibarilə, ərzaq təhlükəsizliyinin təmin olunmasına xidmət edir.

Həmin sahəyə göstərilən dövlət qayğısı sayəsində artıq 4 min hektara yaxın ərazidə yeraltı suvarma şəbəkələri qurulub, 160-dan çox artezian quyusu qazılıb, kəhrizlər bərpa olunub. Bu barədə danışan Ali Məclis Sədrinin qeyd etdiyi kimi, 2003-cü ildə muxtar respublikada 39 min hektar səhə əkinəyararlı torpaqlar idisə, Heydər Əliyev Su Anbarının istifadəyə verilməsindən, yeraltı suvarma şəbəkələri qurulmasından sonra bu gün həmin rəqəm artıq 62 min hektara çatıb. Bu, muxtar respublikanın özünü ərzaqla tam təmin etməsinə şərait yaradır.

### Geostrateji əhəmiyyətə malik diyarın inkişafı bu gün də diqqət mərkəzindədir

Naxçıvan Azərbaycan və ümumilikdə, Türk dünyası üçün çox böyük geostrateji əhəmiyyətə malik mühüm bir məkandır. Məhz buna görə də ulu öndərimizin düşünülmüş və uzaqgörən siyasətində də bu amil həmişə üstün yer tutub, müdrik dövlət xadimi siyasi fəaliyyətinin ayrı-ayrı dövrlərində həmişə Naxçıvanın təhlükəsizliyinin möhkəmlənməsinə və dayanıqlı inkişafına xüsusi diqqət və qayğı göstərib. Ölkə Prezidentinin ***"Naxçıvanın uğurlu və təhlükəsiz inkişafı üçün nə lazımdırsa, biz onu da edəcəyik"***, – deməsi bir daha onu göstərir ki, dövlət başçısı bütün məsələlərdə olduğu kimi, Naxçıvanın daha parlaq gələcəyinin təmin olunması məsələsində də dahi şəxsiyyətin siyasi kursuna sadiqdir. Bu, ölkəmizin, o cümlədən muxtar respublikamızın davamlı inkişafını, yüksəlişini arzu edən qədim Naxçıvanın sakinləri tərəfindən alqışlarla qarşılanır.

**Rauf KƏNGƏRLİ**

---

*Jurnalistin qeydləri*

# Prezident İlham Əliyev: "Şadam ki, Naxçıvanda bütün istiqamətlər üzrə işlər yaxşı gedir"



*Son 30 ilin qısa təhlili göstərir ki, Naxçıvan Muxtar Respublikası olduqca çətin və mürəkkəb dönəmlərdən keçərək öz tarixinin ən yüksək inkişaf mərhələsinə gəlib çatıb. 90-cı illərdə Ermənistanın işğalçılığı ilə blokadaya düşən qədim diyar və onun sakinləri ən çətin məqamlarda ulu öndər Heydər Əliyevin ətrafında sıx birləşmiş, ölkəmizin müstəqilliyi və inkişafına layiqli töhfələr vermişlər.*

### "Biz ulu öndərin siyasətinin gözəl nəticələrini ölkəmizin hər bir yerində görürük"

Ulu öndərin siyasi xəttini uğurla davam etdirən Prezident İlham Əliyev də Naxçıvan Muxtar Respublikasının inkişafını daim diqqət mərkəzində saxlamış, son illər ərzində bu qədim diyarda böyük investisiya proqramları həyata keçirilmiş və bir-birindən əhəmiyyətli sosial-iqtisadi layihələr icra edilmişdir. Dəfələrlə Naxçıvan Muxtar Respublikasına səfər edən dövlətimizin başçısı bir sıra mühüm əhəmiyyətli sosial obyektlərin açılışında şəxsən iştirak etmiş, muxtar respublikada aparılan işləri yüksək qiymətləndirmişdir: ***"Biz ulu öndərin siyasətinin gözəl nəticələrini ölkəmizin hər bir yerində görürük, o cümlədən Naxçıvan Muxtar Respublikasında. Bir daha demək istəyirəm ki, burada aparılan işlər çox yüksək qiymətə layiqdir, çox böyük zəhmət, çox böyük məhəbbət tələb edir. Görürəm ki, bütün işlər böyük məhəbbətlə, böyük zövqlə görülür ki, insanlar üçün yaxşı şərait yaradılsın, Naxçıvan Muxtar Respublikası bundan sonra da uğurla inkişaf etsin... Bu səfər mənim Prezident kimi Naxçıvana sayca 14-cü səfərimdir. Prezident kimi ilk dəfə Naxçıvana düz 14 il bundan əvvəl – 2004-cü ilin may ayında gəlmişdim. Bu 14 il ərzində Naxçıvanda gedən işləri daim diqqətdə saxlamışam və respublikanın uğurlu inkişafı üçün nə lazımdırsa biz onu edirik".***

### Konkret rəqəmlər və faktlar

Təkcə ötən 10 ilin sosial-iqtisadi mənzərəsinə nəzər saldıqda aydın görünür ki, Naxçıvanda görülən işlər gələcəyə, eyni zamanda mühüm strateji hədəflərə hesablanıb. Belə ki, Naxçıvanda ötən 10 ildə 8 milyard 522 milyon 233 min manatdan çox infrastruktur quruculuğu işləri aparılıb. Bu dövr ərzində muxtar respublikada infrastruktur quruculuğu tədbirləri çərçivəsində 100 elm və təhsil müəssisəsi, o cümlədən 20 min 114 şagird yerlik 66 ümumtəhsil məktəbi, 187 inzibati bina, 19 nasos stansiyası, 88 subartezian quyusu, 50 körpü, 216 mədəniyyət obyekti, 113 səhiyyə müəssisəsi, 668 istehsal və xidmət sahəsi, 11 idman və bir sıra digər obyektlər tikilib. Bundan əlavə, bu dövrdə 103 elm və təhsil müəssisəsi, o cümlədən 36 min 786 şagird yerlik 77 ümumtəhsil məktəbi, 81 inzibati bina, 17 nasos stansiyası, 19 subartezian quyusu, 17 körpü, 100 mədəniyyət obyekti, 20 səhiyyə müəssisəsi, 15 idman və bir sıra digər obyektlər yenidən qurulub.

Yaşayış məntəqələrinin abadlaşdırılması, yaşayış yerlərində səmərəli idarəetmənin və əhaliyə göstərilən xidmətlərin səviyyəsinin yüksəldilməsi istiqamətində 2009-cu ildən 1 oktyabr 2019-cu il tarixədək muxtar respublikada 4 qəsəbə və 124 kənd mərkəzi istifadəyə verilib. Bir-birindən əhəmiyyətli su, enerji və kənd təsərrüfatı layihələri icra edilib.

Təbii ki, sadalanan bu rəqəmlər görülən işlərin bir hissəsidir. Və istər Azərbaycan miqyasında, istərsə də muxtar respublikaya səfər edən böyük rəsmi nümayəndə və qonaqların da etiraf etdiyi kimi, Naxçıvan çətin coğrafi və blokada şəraitində böyük nailiyyətlər əldə edib. İslam Mədəniyyətinin Paytaxtı, Azərbaycanın "Gənclər Paytaxtı" ünvanına sahib olub, dünyanın diqqət mərkəzində olan Türkdilli ölkələrin dövlət başçılarının zirvə görüşünə, "Avropa Günləri"nə və Gənc liderlər forumuna ev sahibliyi edib, yüzlərlə tarixi abidəyə ikinci həyat verilərək 100 minlərlə turistə qapı açıb...

### "Naxçıvan son illər ərzində böyük dərəcədə inkişaf etmişdir"

Noyabrın 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovu qəbul edərkən də Naxçıvanın uğurlu inkişafını bir daha qeyd etdi. Naxçıvan Muxtar Respublikasının inkişafının daim diqqət mərkəzində olduğunu bildirən dövlətimizin başçısı aparılan quruculuq-abadlıq işlərinin məmnunluq doğurduğunu bir daha vurğuladı:

***"Naxçıvan Muxtar Respublikasının inkişafı daim diqqət mərkəzindədir. Respublikada gedən abadlıq-quruculuq işləri məni çox sevindirir. Naxçıvan son illər ərzində böyük dərəcədə inkişaf etmişdir, həm sosial sahədə, iqtisadi sahədə, sənaye potensialının möhkəmləndirilməsi istiqamətində böyük addımlar atılmışdır. Bu, çox sevindiricidir. Xüsusilə nəzərə alsaq ki, Naxçıvan uzun illər ərzində mühasirə şəraitində yaşayır, üç tərəfdən düşmənlə əhatə olunub. Buna baxmayaraq, respublika yaşayır, güclənir və böyük inkişaf yolunu davam etdirir".***

Prezident İlham Əliyev ordu quruculuğu və enerji təhlükəsizliyi istiqamətində görülən işləri də yüksək qiymətləndirdi. Bildirdi ki, bu istiqamətdə də böyük işlər görülüb. Hazırda Naxçıvanda generasiya gücü 220 meqavata yaxındır və sevindirici hal ondan ibarətdir ki, bunun əksəriyyəti bərpaolunan enerji növləridir. Su və Günəş Elektrik stansiyalarının tikintisi geniş vüsət alıb. Hazırda uzun illər üzərində işlədiyimiz və İran İslam Respublikası ilə imzalanmış anlaşma nəticəsində reallaşan önəmli layihə icra edilir – 36 meqavat gücündə Ordubad Su Elektrik Stansiyası tikilir.

Qeyd olundu ki, əgər 2003-cü ildə muxtar respublikada bir elektrik stansiyası var idisə, hazırda 9 elektrik stansiyası mövcuddur. Bunun da 6-sı bərpaolunan enerji sistemləridir. Əgər 2003-cü ildə muxtar respublika 1 milyard kilovat-saata yaxın enerji idxal etmişdirsə, 2018-ci ildə 35 milyon kilovat-saata yaxın ixrac edibdir.

### "Bu, doğrudan da, tarixi nailiyyətdir"

Prezident İlham Əliyev qazanılan nəticəni tarixi nailiyyət adlandırdı: ***"Bu, doğrudan da, tarixi nailiyyətdir. Çünki Naxçıvan Muxtar Respublikası Azərbaycanın əsas hissəsindən coğrafi baxımdan ayrılıb və belə olan halda enerji təminatı xüsusi əhəmiyyət kəsb edir. Bu, əslində, təhlükəsizlik məsələsidir və heç bir daxili enerji resursu olmayan Naxçıvan hazırda elektrik enerjisini ixrac edir. Bir neçə il bundan əvvəl bunu təsəvvür etmək belə, mümkün deyildi, bu gün reallıqdır. Şadam ki, bərpaolunan enerjinin ümumi enerji balansındakı payı getdikcə artır və Ordubad Su Elektrik Stansiyasının istifadəyə verilməsi nəticəsində prinsip etibarilə Naxçıvan Muxtar Respublikası öz enerji təminatını 100 faiz bərpaolunan enerji hesabına qarşılayacaqdır".***

Görüşdə muxtar respublikada uğurla reallaşdırılan yol tikinti layihələri, o cümlədən kənd yollarının bərpası, bu istiqamətdə ayrılan vəsaitlərdən muxtar respublikada səmərəli və yerində istifadə edilməsi, Şərur Sənaye Məhəlləsinin yaradılması istiqamətində aparılan işlər, yerli büdcənin formalaşdırılmasının perspektivləri, yeni xalça fabrikinin qurulması məsələlərinə də toxunuldu, bütün bu işlərin muxtar respublikanın inkişafına verəcəyi töhfələr, yeni iş yerlərinin açılmasındakı əhəmiyyəti qeyd olundu.

### "Naxçıvan özünü taxılla tam təmin edir"

Bir zamanlar çörəklə imtahana çəkilən, axşam saatlarından çörək növbələrində dayanan naxçıvanlılar müstəqilliyin bəhrələrini öz gündəlik həyatlarında yaxından hiss edirlər.

Qəbul zamanı da vurğulandığı kimi, artıq bir neçə ildir ki, Naxçıvan özünü taxılla tam təmin edir və məhsuldarlıq da yaxşıdır. Kənd təsərrüfatının inkişafı üçün pivot suvarma qurğularının alınması məqsədilə vəsait ayrılıb, eyni zamanda Süni Mayalanma Mərkəzinin tikintisi aparılır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun qeyd etdiyi kimi, bu illər ərzində 4 min hektara yaxın ərazidə yeraltı suvarma şəbəkələri qurulmuş, 160-dan yuxarı artezian quyusu qazılmış və kəhrizlər bərpa olunmuşdur. Bunun hesabına 2003-cü ildə muxtar respublikanın əkinəyararlı torpaqları 39 min hektarı əhatə edirdisə, Heydər Əliyev Su Anbarı istifadəyə verildikdən və yeraltı suvarma şəbəkələri qurulandan sonra bu gün artıq 62 min hektar əkinəyararlı torpaqlardan istifadə olunur və muxtar respublika özünü ərzaqla tam təmin edə bilir:

Ali Məclisin Sədri: ***"Deyə bilərik ki, Sizin rəhbərliyinizlə muxtar respublikada ərzaq, enerji və müdafiə təhlükəsizliyi məsələləri tam təmin olunubdur".***

Bir məqama da toxunaq ki, aparılan sistemli tədbirlər nəticəsində Naxçıvanın ixrac imkanları da xeyli dərəcədə artıb. Muxtar respublika indi dünyanın onlarla müxtəlif ölkəsinə yerli istehsal məhsullarını ixrac edir. Və təbii ki, Naxçıvanın istehsal potensialı artdıqca ixrac imkanları getdikcə daha da genişlənir.

### "Əminəm ki, bu dinamika gələn il də təmin ediləcək"

***"Müdriklərin yolunu müdriklər davam etdirməlidir"***, – tezisi ölkəmizin son illərdə uğurlu inkişafında da dolğun əks olunur. İstər Azərbaycanda, istərsə də onun qədim diyarı Naxçıvanda ulu öndər Heydər Əliyevin yolunun uğurla davam etdirilməsi hər birimizi gələcəyə daha inamla baxmağa sövq edir. Dövlət başçımızın Naxçıvan Muxtar Respublikasına gündəlik diqqət və qayğısı, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun böyük vətənpərvərlik ruhu və yüksək idarəçiliyi ilə həyata keçirilən ardıcıl sosial-iqtisadi islahatlar hər bir muxtar respublika sakinini sevindirir və bu torpağa daha dərin bağlarla bağlayır. Hər kəs növbəti illərin daha böyük uğurlarla yadda qalacağına əmindir.

Prezident cənab İlham Əliyevin dediyi kimi: ***"Çox yaxşı. Şadam ki, Naxçıvanda bütün istiqamətlər üzrə işlər yaxşı gedir. Əminəm ki, bu dinamika gələn il də təmin ediləcək. Əminəm ki, muxtar respublika əhalisinin sosial rifahının yaxşılaşdırılması, respublika qarşısında duran bütün vəzifələrin icrası üçün bütün qüvvələr səfərbər ediləcək və 2020-ci il də Naxçıvan üçün uğurlu olacaqdır".***

**Sahil TAHİRLİ**
*"Nuhçıxan" İnformasiya Agentliyi*
*18 noyabr 2019-cu il*



Naxçıvan Muxtar Respublikası – 95

# Unikal muzeylər diyarı – NAXÇIVAN

***Hər kəsə bəllidir ki, turistlər, adətən, hər hansı bir ölkəyə və ya şəhərə səfər edərkən əvvəlcə muzeylərə üz tutur, onların ilk təəssüratları həmin mədəniyyət ocaqlarından başlayır. Bu baxımdan muzeylər təmsil etdikləri diyarın dünənini bu günə daşımaqla yanaşı, həm də turizmin inkişafına öz müsbət təsirini göstərir. Elə muxtar respublikamıza üz tutan qonaqların qayıtdıqdan sonra sosial şəbəkələrdə, müxtəlif qəzet və internet portallarında paylaşdıqları fikir və fotolar, heyrətedici təəssüratlarını ifadə edən sözlər də bunu deməyə əsas verir.***

Bu gün Naxçıvanı, haqlı olaraq, muzeylər diyarı adlandırırlar. Çünki Naxçıvan milli və mənəvi dəyərləri özündə qoruyub saxlayan, böyük tarixə malik bir diyar kimi şöhrət tapıb. Xalqımızın yaratmış olduğu qiymətli sərvətlər, 5 min ildən artıq tarixi bir dövrü əks etdirən dəyərli eksponatlar 30-dan çox müxtəlif profilli muzeydə mühafizə olunur. Bu mənada, muzeylərimiz xalqımızın rəsmi kimliyidir, desək, yanılmarıq. Çünki bu mədəniyyət ocaqlarında xalqın tarixi keçmişi, adət-ənənələri, estetik zövqü, bədii düşüncə tərzi, mədəniyyəti və sənətkarlığı yaşayır.

Diyarımıza unikallıq bəxş edən çoxprofilli muzeylərimizdən "Gəmiqaya" Tarix-Bədii Qoruğu və Muzeyi, turistlərin də etiraf etdiyi kimi dünyanın ən yüksək zirvəsində yerləşən muzey ünvanına malikdir. Həmin mədəniyyət müəssisəsini ziyarət etmək istəyənlər dəniz səviyyəsindən 3000 metr yüksəkliyə qədər yol qət etməlidirlər. Buna görə də nəinki xarici qonaqlar, hətta yerli sakinlərin də bir çoxu, hələlik, bu muzeylə tanış olmayıb.

Naxçıvan Duz Muzeyini də məşhur muzeylər sırasında görmək mümkündür. Son dövrlərdə istifadəyə verilməsinə baxmayaraq, ən çox ziyarət



olunan mədəniyyət müəssisələrindəndir. Otel tərkibində yerləşməsi ilə unikallıq kəsb edən bu muzey hər bir eksponatı ilə diyarımızın zəngin sərvətini sərgiləməklə yanaşı, Naxçıvanın şəhər mədəniyyətinin formalaşmasını özündə əks etdirmək baxımından da əhəmiyyətlidir.

Açıq Səma Altında Muzey də bu statusu daşıyan digər ünvanlardan unikallığı ilə seçilir. Buradakı eksponatlar xüsusi bir bina daxilində deyil, açıq ərazidə nümayiş etdirilir. Daş qoçlar, qədim daş alətlər, daş qəbirlər və daş kitabələr... Bu abidələri yaxından izlədikcə bir daha Naxçıvanın minilliklərə uzanan qədim tarixi, mədəniyyəti ilə təmas qurur, min illərin daşlaşmış tarixi ilə yaxından tanış olursan.

"Əlincəqala" Tarix-Mədəniyyət Muzeyi isə Naxçıvanın məğrurluq, yenilməzlik simvolunu əks etdirən dəyərli eksponatları özündə hifz edir. Əlincəqalanın ətəyində yerləşən bu muzeydə vaxtilə 14 il Əmir Teymurun qoşunlarına qarşı mərdliklə mübarizə aparıb təslim olmayan ulularımızın qəhrəmanlıq salnaməsini tarixin yaddaşına köçürmüş eksponatlarla daha yaxından tanış olmaq imkanı əldə edirsən.

Şəhərimizin ən gözəl guşələrindən birində yerləşən Dövlət Bayrağı Muzeyi, eyni zamanda "Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyi zəngin dövlətçilik tariximizi, Döyüş Şöhrəti Muzeyi isə şanlı zəfər tariximizi özündə əks etdirən eksponatlarla maraqdoğuran mədəniyyət ocaqlarındandır.

Və nəhayət, Heydər Əliyev Muzeyi... Ölkəmizdə xalqımızın böyük oğlu Heydər Əliyevin adını daşıyan 50-dən çox muzey və mərkəz fəaliyyət göstərir. Bunlar içərisində Naxçıvanda yaradılmış Heydər Əliyev Muzeyi xüsusi yer tutur. Muzey ulu öndərimizin doğulub boya-başa çatdığı, ilk əmək fəaliyyətinə başladığı, 1969-cu ildən Azərbaycanın rəhbəri kimi qurub-yaratdığı, 90-cı illərdə isə qoruyub saxladığı və sonrakı illərdə himayəsi ilə günü-gündən inkişaf edib çiçəklənən doğma Naxçıvan torpağında yaradılıb. Bu muzeyə unikallıq qazandıran əsas amil isə ümummilli liderin hələ sağlığında ulu öndərlə bağlı Azərbaycanda yaradılmış ilk muzey olmasıdır. Görkəmli dövlət xadiminin həyatı və fəaliyyəti ilə bağlı eksponatlar ulu öndərimizin zəngin irsi və dövlətçilik təcrübəsinin öyrənilməsində, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsində müstəsna rol oynayır.

Naxçıvan Dövlət Tarix Muzeyi və rayonlarda fəaliyyət göstərən tarix-diyarşünaslıq muzeyləri isə nəinki əhatə etdikləri coğrafi ərazinin, Azərbaycan tarixinin bütün dövrlərinə aid maddi və mədəniyyət nümunələrinin toplanılması, öyrənilməsi, nümayişi və təbliği ilə məşğul olan elmi-tədqiqat və mədəni-maarif müəssisələridir.

Bu gün dövlətimiz muzeylərin fəaliyyətinin genişləndirilməsinə xüsusi diqqət yetirir. Muzeyşünaslıq işinin inkişafının əsasını isə ümummilli lider Heydər Əliyev qoyub. Görkəmli dövlət xadiminin Azərbaycana rəhbərliyinin birinci mərhələsində milli-mədəni sərvətlərimizin qorunub saxlanıldığı və təbliğ olunduğu muzeylərimiz də inkişaf edib, yeni muzeylər yaradılaraq onların şəbəkəsi genişlənib, maddi-texniki bazası möhkəmləndirilib. Həmin dövrdə Naxçıvanda cəmi iki muzey var idi. Onlardan biri hazırda yaradılmasının 95 illiyini qeyd etdiyimiz Naxçıvan Dövlət Tarix Muzeyi, digəri isə 1967-ci ildə təşkil edilən Cəlil Məmmədquluzadə adına Naxçıvan Muxtar Respublikası Ədəbiyyat Muzeyi idi. Ötən əsrin 70-ci illərində ümummilli liderimizin təşəbbüsü ilə "Respublikada muzey işinin yaxşılaşdırılması haqqında" qəbul edilən Qərar Azərbaycanın bütün muzeyləri kimi, Naxçıvandakı tarix və ədəbiyyat muzeylərinin də gələcək inkişafında böyük rol oynadı. Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 1970-ci ilin yanvarında qəbul edilən muzey işinə dair qərardan sonra Azərbaycanın bir çox yerlərində olduğu kimi, Naxçıvan Muxtar Respublikasının şəhər və rayonlarında da müxtəlif profilli muzeylər yaradıldı. Ordubad rayonunda 1972-ci ildə görkəmli ədib Məmməd Səid Ordubadinin, 1975-ci ildə isə akademik Yusif Məmmədəliyevin ev-muzeyləri təşkil edildi.

Görkəmli dövlət xadiminin qayğısı ilə 1980-ci ildə muzeylər şəbəkəsinin inkişafına, bu işə rəhbərliyin təkmilləşdirilməsinə xidmət edən və bölgələrdə tarix-diyarşünaslıq muzeylərinin açılmasına stimul yaradan daha bir tarixi qərar qəbul edildi. Həmin qərardan sonra 1980-1982-ci illərdə Naxçıvan Muxtar Respublikasının Şərur, Babək, Ordubad, Culfa və Şahbuz rayonlarında tarix-diyarşünaslıq muzeyləri, Naxçıvan şəhərində isə Hüseyn Cavidin və Cəmşid Naxçıvanskinin ev-muzeyləri yaradıldı, 1982-1983-cü illərdə Naxçıvan Dövlət Tarix Muzeyinin ekspozisiyası geniş mövzulu plan əsasında yenidən quruldu.

Muzey işinin təkmilləşdirilməsi sahəsində həyata keçirilən tədbirlər ölkəmiz müstəqilliyinə qovuşduqdan sonra da davam etdirilib. 1997-ci ildə Naxçıvan Dövlət Xalça Muzeyi, 1998-ci ildə Naxçıvan şəhərində Cəlil Məmmədquluzadənin ev-muzeyi, 1999-cu ildə Heydər Əliyev Muzeyi, 2000-ci ildə Xatirə Muzeyi, 2001-ci ildə Sədərək Rayon Tarix-Diyarşünaslıq Muzeyi, 2002-ci ildə Naxçıvan şəhərində Bəhruz Kəngərli Muzeyi, Açıq Səma Altında Muzey fəaliyyətə başlayıb.

2007-ci ildə Kəngərli Rayon Tarix-Diyarşünaslıq Muzeyinin, 2010-cu ildə Kəngərli rayonunun Şahtaxtı kəndində Şahtaxtinskilər Muzeyinin, Naxçıvan şəhərində "Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyinin fəaliyyətə başlaması qədim tariximizə, milli-mədəni irsimizə dövlət qayğısının bariz nümunəsidir. Son illərdə də Naxçıvanda muzeylərin fəaliyyətinin genişləndirilməsi ənənəsi davam etdirilib, "Naxçıvanqala" Tarix-Memarlıq Muzeyi, Dövlət Bayrağı Muzeyi, Naxçıvan Duz Muzeyi, Döyüş Şöhrəti Muzeyi, eləcə də Cəlilkənddə böyük ədib Cəlil Məmmədquluzadənin xatirə, Nursu kəndində Xalq şairi Məmməd Arazın ev-muzeyi kimi onlarla tarix-mədəniyyət muzeyi yaradılaraq fəaliyyətə başlayıb. Görülən işlərin davamı olaraq bu yaxınlarda Cəmşid Naxçıvanski Muzeyinin yerləşdiyi tarixi bina yenidən qurularaq daha müasir şəraiti ilə ziyarətçilərin üzünə açıldı. Sözügedən binada bu ildən daha bir yeni muzey – Milli Dəyərlər Muzeyi fəaliyyətə başladı.

Bir sözlə, son 20 ildən artıq bir dövrdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun təşəbbüsü, diqqət və qayğısı ilə muxtar respublikada bir çox yeni muzeylər yaradılıb, mövcud muzeylərin yerləşdikləri binalarda əsaslı yenidənqurma işləri aparılıb, onların maddi-texniki bazası möhkəmləndirilib. Bütün bunların nəticəsidir ki, bu gün artıq Naxçıvan Muxtar Respublikasında geniş muzeylər şəbəkəsi mövcuddur. Əgər 1995-ci ildə Naxçıvanda cəmi 13 muzey var idisə, hazırda 30-dan çox muzey və muzeytipli müəssisə mövcuddur.

Bu gün Naxçıvanda muzeyşünaslıq işi 95 yaşını qeyd edir. Bu tarix 1924-cü ildə Naxçıvan Dövlət Tarix Muzeyinin yaradılması ilə



başlayır. Muzey ötən əsrin 80-ci illərindən etibarən tarix profilli muzeylər üçün baza müəssisəsi kimi fəaliyyət göstərir, muxtar respublikada yeni yaranan muzeylərin fondunun təşkilində və ekspozisiyasının qurulmasında yaxından iştirak edir, onlara lazımi metodik köməklik göstərir. Həmin ənənə bu gün də davam etdirilir. Təkcə "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksinin fondunun təşkili və ekspozisiyasının qurulması üçün tarix muzeyindən 400-ə yaxın müxtəlif çeşidli eksponat verilib. Bu yaxınlarda istifadəyə verilən Milli Dəyərlər Muzeyinin fondunun təşkilində də Naxçıvan Dövlət Tarix Muzeyi mühüm rol oynayıb.

Bir sözlə, xalqımızın tarixinin, milli-mənəvi dəyərlərinin qorunması və təbliği baxımından çox əhəmiyyətli məkanlar olan muzeylərin fəaliyyətinə bu gün xüsusi diqqət göstərilir, onların maddi-texniki bazası gücləndirilir, əməkdaşların peşəkarlıq səviyyəsi artırılır. Naxçıvan Dövlət Universitetində Muzeyşünaslıq ixtisası üzrə hər il ixtisaslı kadrlar yetişərək muzeylərimizdə əmək fəaliyyətinə başlayır. Bu gün nəzər salsaq, görərik ki, muzeylərimizdə fəaliyyət göstərənlərin böyük əksəriyyəti məsuliyyətli və öz üzərlərində daim çalışan nümunəvi gənclərdir. Daha bir vacib məqam isə ondan ibarətdir ki, həmin gənc əməkdaşların əksəriyyəti müxtəlif xarici dil biliyinə malikdir. Günümüzdə xarici qonaqların ilk üz tutduğu məkanların məhz muzeylər olduğunu nəzərə alsaq, gənc bələdçilərin üzərinə daha böyük məsuliyyətin düşdüyünü deyə bilərik. Buna görə də onlar müxtəlif xarici dillərdə də turistləri məlumatlandırmağa hazırdırlar. Bu isə tariximizi, mədəniyyətimizi, milli-mənəvi dəyərlərimizi xarici turistlərə dolğun çatdırmaq baxımından mühüm əhəmiyyət kəsb edir. Təkcə cari ilin ötən 9 ayı ərzində muxtar respublikamıza gələn turistlərin sayının 340 minə yaxın olduğunu nəzərə alsaq, muzey bələdçilərinin müxtəlif xarici dil biliklərinə yiyələnmələrinin əhəmiyyəti bir daha ortaya çıxır. Bütün bunlar nəzərə alınaraq muzeyşünaslıq işinin təkmilləşdirilməsi istiqamətində ardıcıl tədbirlər görülür, bələdçilərin iştirakı ilə müxtəlif seminar-treninqlər, xarici dil kursları keçirilir, onların ekskursiya işinin təşkili ilə bağlı nəzəri və praktik bilik səviyyəsi yüksəldilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamlarına əsasən muzeylərlə təhsil müəssisələrinin əlaqələrinin təmin edilməsi, distant və açıq dərslərin keçilməsi, "Muzey günləri" çərçivəsində muzeylərə kollektiv ekskursiyaların təşkil olunması tariximizi, mədəniyyətimizi gənc nəsillərə aşılamaq baxımından düşünülmüş addımlardır. Ali Məclis Sədrinin "Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında" 2014-cü il 19 dekabr tarixli Sərəncamında deyildiyi kimi: ***"Muzeylər mədəni irsimizin, milli dəyərlərimizin qorunması və təbliğində, gənc nəslin tərbiyəsində və dünyagörüşünün zənginləşməsində böyük əhəmiyyətə malikdir. Bütün bunlar nəzərə alınaraq muzeylərdə açıq dərslər keçirilir, ümumtəhsil məktəbləri ilə muzeylər arasında interaktiv təhsil təşkil olunur. Görülən tədbirlər maddi-mənəvi sərvətlər xəzinəsi olan muzeylərə marağın artmasına, tariximizin, mədəniyyətimizin hərtərəfli öyrənilməsi və təbliğinə şərait yaradır".***

Həyata keçirilən bu tədbirlərin nəticəsidir ki, əvvəlki illərlə müqayisədə gənclərin muzeylərə marağı daha da artıb. Gənclər tariximizə və mədəniyyətimizə muzeylərin gözü ilə baxır, Naxçıvanın müasir inkişafı, tarixi, mədəni irsi, adət-ənənələri, özünəməxsus xüsusiyyətləri ilə yaxından tanış olur, gündən-günə abadlaşan şəhər və rayonlarımızın yeniləşən siması barədə onlarda əyani təsəvvür yaranır. Muzeylərlə əlaqələrin genişləndirilməsinin nəticəsidir ki, sakinlər ata-babalarından qalan nadir tarixi eksponatları muzeylərə təqdim edir, mədəni sərvətlərimizə, maddi irsimizə ümumxalq dəyəri qatırlar. Sakinlər muzeylərin zənginləşdirilməsi işində də fəallıq nümayiş etdirir, tariximizin qorunmasına, mədəniyyətimizin inkişafına öz töhfələrini verməyə çalışırlar. Təkcə bu il sakinlər tərəfindən ayrı-ayrı muzeylərə 900 eksponat təqdim edilib.

***Bütün bunlar belə deməyə əsas verir ki, bu gün muzeylər diyarı Naxçıvanda muzeyşünaslıq işi yüksəliş dövrünü yaşayır. Nə zaman muzeylərə üz tutsaq, mütləq istər yerli sakinlər, istərsə də xarici turistlər tərəfindən bu mədəniyyət müəssisələrinin ziyarət edildiyinin şahidi oluruq. Turistlərin daha çox dilə gətirdiyi əsas fikirlərdən biri isə odur ki, Naxçıvanda muzeylər pulsuz və nümunəvi xidmət göstərir. Bəli, bu belədir. Çünki biz tariximizlə öyünür, milli dəyərlərimizi özündə yaşadan maddi mədəniyyət nümunələrinə heç bir məbləğlə ölçülməyəcək dəyəri veririk.***

**Gülcamal TAHİROVA**

***Bu yazı "Muxtariyyətin quruculuq, inkişaf və sabitlik dövrü" mövzusunda yaradıcılıq müsabiqəsinə təqdim etmək üçündür.***

## Muxtar respublikada uşaqlarla bağlı həyata keçirilən siyasətin nəticələri ürəkaçandır

*Uşaqları qorumaq və onların hüquqlarını müdafiə etmək hər birimizin borcudur. Çünki uşaqlar həm hər bir evin, ailənin bəzəyi, yaraşığı, həm də hər bir dövlətin, millətin sabahı, gələcəyidir. Bu səbəbdən hər bir dövlət və cəmiyyət gələcəyi olan uşaqların qayğısına qalmağı, onların fiziki və mənəvi cəhətdən sağlam böyüməsini təmin etməyi, hüquqlarının qorunmasını, onların layiqli vətəndaş kimi formalaşdırılmasını özünün ən mühüm vəzifələrindən biri hesab edir.*



Uşaq hüquqlarının müdafiəsinin hərtərəfli təmin olunması ölkəmizdə uğurla həyata keçirilən dövlət siyasətinin ayrılmaz tərkib hissəsidir. Uşaqların keyfiyyətli təhsil almaları, yüksək dünya standartlarına cavab verən tibbi xidmətlərlə təmin edilmələri, hərtərəfli qayğı ilə əhatə olunmaları, onlar üçün zəruri şəraitin yaradılması, böyüməkdə olan nəslin layiqli vətəndaş kimi formalaşması Azərbaycanda dövlət uşaq siyasətinin başlıca prinsiplərindəndir.

Naxçıvan Muxtar Respublikasında da uşaqlar dövlət qayğısı ilə təmin edilir, onların təhsili, sağlamlıqlarının qorunması, istedadlarının üzə çıxarılması, intellektual və mənəvi inkişafı, asudə vaxtının və tərbiyəsinin düzgün təşkili, cəmiyyətin ictimai-mədəni həyatındakı iştiraklarını təmin etmək məqsədilə mühüm tədbirlər həyata keçirilir. Bu gün muxtar respublika əhalisinin 35 faizi və ya 163 min 815 nəfəri uşaqdır.

Muxtar respublikada uşaqların yaxşı təhsil almaları, layiqli vətəndaş kimi formalaşmaları istiqamətində bir çox işlər görülür, müasir avadanlıqlarla təchiz olunmuş yeni-yeni məktəb binaları tikilərək istifadəyə verilir. Eyni zamanda uşaqların təhsilləri ilə yanaşı, asudə vaxtlarının da səmərəli təşkili, fiziki cəhətdən sağlam böyüməsi də diqqət mərkəzində saxlanılır. Bunun üçün muxtar respublikada müasir standartlara uyğun olimpiya idman kompleksləri, üzgüçülük və şahmat mərkəzləri, uşaq-gənclər şahmat məktəbləri, uşaq-gənclər idman məktəbləri və digər obyektlər istifadəyə verilmişdir. Bu hərtərəfli şərait istedadlı uşaq, yeniyetmə və gənclərin təhsil, mədəniyyət, idman və digər sahələrdə uğurlar qazanmalarına zəmin yaratmışdır. Bunun nəticəsidir ki, hazırda muxtar respublikada 30 minə yaxın uşaq idmanla məşğul olur.

Həmçinin xüsusi qayğıya ehtiyacı olan uşaqlara, habelə aztəminatlı, çoxuşaqlı ailələrdən olan uşaqlara dövlət qayğısının göstərilməsinə xüsusi önəm verilir.

Sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə inteqrasiyası, onların təhsili, reabilitasiyası da səmərəli təşkil edilir. Belə ki, "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı"nın icrası daim nəzarətdə saxlanılır, uşaqlar məktəbəqədər, məktəb, məktəbdənkənar və peşə təhsil müəssisələrinə cəlb edilir. Cari ilin ötən dövrü ərzində Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən 69 uşaq məktəb, məktəbəqədər, məktəbdənkənar və müalicə reabilitasiya müəssisələrinə cəlb olunmuşdur. Eyni zamanda komitə tərəfindən muxtar respublikamızda qeydiyyatda olan sağlamlıq imkanları məhdud uşaqların xəstəlikləri üzrə təhlillər aparılır, muxtar respublikanın rayon və kənd mərkəzlərində belə xəstəliklərin qarşısının alınması ilə əlaqədar qadınlar arasında maarifləndirici tədbirlər həyata keçirilir.

Sağlamlıq imkanları məhdud uşaqlar arasında müxtəlif yarış və müsabiqələrin keçirilməsi onların asudə vaxtlarının səmərəli təşkili ilə yanaşı, istedadlarının üzə çıxarılması, əqli və fiziki inkişafı baxımından da mühüm əhəmiyyət kəsb edir. Həmin kateqoriyadan olan uşaqların tarixi abidələrə, muzeylərə, istehsal və emal müəssisələrinə ekskursiyaları təşkil edilir, onlar arasında əyləncəli idman oyunları, yarışlar və müsabiqələr keçirilir, film, konsert proqramı və tamaşalar nümayiş olunur. Müvafiq kateqoriyadan olan uşaqların iştirakı ilə konsert proqramı, rəsm və əl işlərindən ibarət sərgilər təşkil edilir, Ağbulaq İstirahət Mərkəzində istirahətləri təmin olunur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında gənc istedadlara dövlət qayğısının artırılması haqqında" 2012-ci il 31 yanvar tarixli Fərmanına uyğun olaraq "Gənc istedadların "Qızıl kitabı""nın yaradılması, 11 istedadlı uşağın adının bu kitaba yazılması və onlara xüsusi təqaüdlərin verilməsi istedadlı uşaqlara göstərilən qayğının daha bir ifadəsidir.

Həmçinin Ali Məclis Sədrinin 2012-ci il 24 may tarixli Fərmanı ilə "Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası" təsdiq edilmiş, uşaq hüquqlarının müdafiəsi üçün dövlət qurumları arasında koordinasiya və nəzarət sistemi təkmilləşdirilmiş, monitorinq qrupu yaradılmışdır. Uşaqların qanunvericiliklə müəyyən edilmiş hüquq və mənafelərinin qorunması, uşaq hüquqlarının təmin edilməsi üçün əlverişli mühitin yaradılması və uşaq hüquqlarının pozulması hallarının qarşısının alınması məqsədilə uşaq müəssisələrində monitorinqlər aparılmışdır.

"Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankının təşkili və aparılması Qaydası"na uyğun olaraq Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankı təşkil olunmuş, 25 min uşaq haqqında fərdi məlumatlar banka daxil edilmişdir.

Muxtar respublikada valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar da hər zaman diqqət mərkəzində saxlanılır, onlara qayğı ilə yanaşılır. Bayram günlərində və tədbirlərdə valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş, qaçqın və məcburi köçkün, sağlamlıq imkanı məhdud, şəhid və aztəminatlı ailələrdən olan uşaqlara hədiyyələr verilir, həmin uşaqlar məktəbli paltarı, dərs ləvazimatları və qış geyimi ilə təmin olunurlar. Cari ilin ötən dövrü müvafiq kateqoriyadan olan 751 uşağa hədiyyə və sovqatlar verilmiş, 379 uşaq məktəbli paltarı, dərs ləvazimatları və qış geyimi ilə təmin olunmuşdur.

Uşaqların sağlamlıqlarının qorunması ilə bağlı həyata keçirilən tədbirlərin nəticəsi olaraq uşaq tibb müəssisələrinin maddi-texniki bazasının yaxşılaşdırılması, müasir avadanlıqlarla təchiz edilməsi əhali arasında geniş maarifləndirmə işinin aparılması istiqamətlərində mühüm addımlar atılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 9 oktyabr tarixli Sərəncamı ilə təsdiq olunmuş "Naxçıvan Muxtar Respublikasında uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı"nın qəbul olunması bu sahədə atılan mühüm addımlardan biridir. Görülən işlərin nəticəsidir ki, ildən-ilə sağlamlıq imkanı məhdud olan uşaqların sayı azalmış, uşaq ölümü halları minimuma endirilmişdir.

Uşaq ədəbiyyatı uşaqların vətənpərvərlik ruhunda böyüməsində, milli dəyərlərimizi mənimsəməsində və dünyagörüşlərinin formalaşmasında əsas vasitələrdəndir. Buna görə uşaqların asanlıqla qavraya biləcəkləri kitablar nəşr olunur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin himayəsi ilə "Uşaqlar və Günəş" almanaxı, "Gəncliyimiz-gələcəyimiz" "Təmsillər", "Şeir və hekayələr", "Şeirlər", "Poema və pyeslər", "Naxçıvan bəstəkarlarının uşaq mahnıları", "Sevimli dostlarım kitablar" adlı uşaq kitablarının nəşr olunması uşaqlarda mütaliəyə marağı artırmışdır.

Muxtar respublikada qazanılan hərtərəfli uğurlar sırasında ailələrimizin davamı, dövlətimizin gələcəyi olan uşaqlarla bağlı gerçəkləşdirilən ardıcıl siyasətin ürəkaçan, sevincli nəticələri də diqqətçəkəndir. Göstərilən diqqət və qayğının nəticəsində muxtar respublikada dövlət uşaq müəssisələrində valideynləri tərəfindən tərk edilmiş, məktəbdən yayınan, cinayət məsuliyyətinə cəlb olunmuş uşaq yoxdur.

***Uşaqlar hər bir evin, ailənin ən dəyərli sərvəti, hər bir xalqın gələcəyidir. Gələcəyimiz olan uşaqları qorumaq hamımızın borcudur. Muxtar respublikada həyata keçirilən tədbirlər gələcəyin vətənpərvər, yüksək zəkalı, intellektual vətəndaşları olacaq bugünkü uşaqların firavan həyatının, təlim-tərbiyəsinin, fiziki-mənəvi sağlamlığının müdafiəsinə yönəlmişdir. Uşaqlara qayğı, onların hüquqlarının qorunması istiqamətində hər birimiz uşaqların hərtərəfli böyüdülməsi üçün səy göstərməli, əlimizdən gələni əsirgəməməliyik.***

**Zərnigar ORUCƏLİYEVA**

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi Aparatının İctimaiyyətlə əlaqələr və informasiya təminatı üzrə baş məsləhətçisi***

## Xalq artisti, "Şöhrət" ordenli dirijor Teymur Göyçayevin rəhbərliyi ilə ustad dərsi keçilib



***Dünən Naxçıvan Musiqi Kollecində Qara Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestrinin dirijoru və bədii rəhbəri, Bülbül adına Orta İxtisas Musiqi Məktəbinin direktoru, Xalq artisti, "Şöhrət" ordenli dirijor Teymur Göyçayevin rəhbərliyi ilə muxtar respublikada fəaliyyət göstərən uşaq, musiqi, incəsənət və bədii sənətkarlıq məktəbinin şagird və müəllimləri, eləcə də Musiqi Kollecinin müəllim və tələbələri üçün ustad dərsi təşkil olunub.***

Teymur Göyçayev dərsdə gənc ifaçılara ifa etdikləri alətin texnikası və düzgün istifadə qaydaları haqqında məsləhət və tövsiyələrini verib, onları musiqinin sirlərinə dərindən yiyələnməyə səsləyib. Dirijor müəllim və tələbələrin suallarını cavablandırıb.

Naxçıvan Musiqi Kollecinin direktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi Günay Əliyeva bildirib ki, Teymur Göyçayevin rəhbərlik etdiyi orkestr bir neçə dəfə Naxçıvanda geniş konsert proqramları ilə çıxış edib. Bu gün isə görkəmli dirijor şagird və tələbələr üçün ustad dərsi keçir. Həmin dərslər vasitəsilə musiqi qabiliyyətinə malik istedadları aşkara çıxarılan uşaqlara yeni bacarıqlar aşılanır və onların sənət vərdişləri inkişaf etdirilir. Günay Əliyeva dirijor Teymur Göyçayevə bu gün təşkil edilən maraqlı dərs üçün minnətdarlığını bildirib.

Ustad dərsindən sonra görkəmli musiqi xadimi ilə həmsöhbət olduq. Dirijor bildirdi ki, Naxçıvana dördüncü dəfədir, gəlir. Sonuncu dəfə 2010-cu ildə Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında bədii rəhbəri olduğum Qara Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestrinin konserti üçün gəlmişdik. Bu gün isə gələcək musiqi ifaçılarımızla onlara musiqini tədris edən müəllimlərimizlə təcrübəmizi paylaşmaq, Naxçıvanı yenidən gəzmək, görmək üçün buradayam. Hər dəfə bura gələndə çox gözəl hisslərlə qayıdıram Bakıya. Şəhərin təmizliyi, gözəlliyi, insanların qonaqpərvərliyi mənə ruh verir. Yaradılan bu gözəlliklər həqiqətən də muxtar respublikada mövcud olan nümunəvi bir dövlətçilik modeli, yurda bağlılıq nümunəsidir.

Qeyd etmək istəyirəm ki, burada çox istedadlı insanlar yaşayır, həm də istedadlı gənclər yetişir. Görünür ki, muxtar respublikada mədəniyyətə, incəsənətə, musiqiyə, bu sahədə fəaliyyət göstərən insanlara xüsusi diqqət və qayğı vardır.

Mən bura gəlməmişdən qabaq muxtar respublikanın Mədəniyyət naziri ilə görüşdüm. Çox istərdim ki, Bülbül adına Orta İxtisas məktəbi ilə burada fəaliyyət göstərən musiqi məktəbləri arasında körpü yaradaq, birlikdə maraqlı layihələr hazırlayaq, sənət mübadiləsi aparaq. Çünki buradakı uşaqların çox gözəl göstəriciləri və ümidverici istedadları vardır. Biz də bu gənc istedadları kəşf edib onların inkişafına töhfə vermək üçün hər zaman əlimizdən gələni etməyə hazırıq.

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

## Tələbələr hami təşkilatda təcrübədə olublar



*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il iyulun 27-də imzaladığı "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Sərəncamına uyğun olaraq, noyabr ayının 19-da Naxçıvan Dövlət Universitetinin Sosial iş ixtisası üzrə IV kurs tələbələrinin Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin aparatında və struktur qurumlarında təcrübə keçmələrinə dair görüş keçirilib.*

Tədbirdə çıxış edən Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Nicat Babayev Naxçıvan Dövlət Universiteti ilə nazirlik arasında qarşılıqlı əməkdaşlığı yüksək qiymətləndirib və bu istiqamətdə fəaliyyətin bundan sonra da uğurla davam etdiriləcəyini vurğulayıb. Universitetin tədris və tərbiyə işləri üzrə prorektoru, tarix üzrə fəlsəfə doktoru, dosent Rafiq Rəhimov Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fakültəyə uğurla hamilik etməsindən, tələbələrin ixtisas təcrübəsi qazanmaları üçün hərtərəfli şərait yaradılmasından, nəzəri-təcrübi əhəmiyyətli birgə tədbirlərin həyata keçirilməsindən bəhs edib.

Təcrübəçi tələbələrdən Arzu Əliyarqızı, universitetin Sosial iş ixtisası üzrə məzunu, hazırda nazirliyin strukturunda işləyən dövlət qulluqçusu Yavər Abbasov müvafiq sərəncamın gənclər üçün əhəmiyyətindən danışıb, minnətdarlıqlarını bildiriblər.

Daha sonra tələbələr nazirliyin strukturuna daxil olan təşkilatlarda olub, iş prosesini yerində izləyiblər.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

### İtmişdir

Tarverdiyev Nurlan Bilal oğlunun adına olan 14.05.2015-ci il tarixdə verilmiş AO-0633372 nömrəli hərbi bilet itdiyindən etibarsız sayılır.

* * *

Bağırov Samir Əli oğlunun adına olan Naxçıvan şəhər Babək məhəlləsi ev 12, mənzil 31-ə aid olan 7847 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

### Bildiriş

"Gəmiqaya Mineral Sular MMC-nin (VÖEN-0200465671) hüquqi adı dəyişilərək "Badamlı Mineral Sular" MMC-yə çevrilmişdir.


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1495. Sifariş № 796